# ÇOXMEYARLI TƏHLİL ÜSULU ƏSASINDA İQLİM DƏYİŞMƏLƏRİ LAYİHƏLƏRİNİN ÖLKƏNİN DAVAMLI İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Müslüm Qurbanov[1*], Məhərrəm Mehtiyev[2], Sənəm Vəliyeva[1]**

*[1]AR ETN Radiasiya Problemləri İnstitutu, Bakı*
*[2]AR ETN Neft və Qaz İnstitutu, Bakı*
**mgurbanov51@gmail.com*

Azərbaycan Respublikası 1995-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını, 2000-ci ildə Konvensiyaya Kioto Protokolunu və 2016-cı ildə Paris Sazişini ratifikasiya etməklə qlobal iqlim dəyişikliyinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulmuşdur [1].

Təxminən 10 milyon əhalisi olan Azərbaycan qlobal istixana qazları emissiyalarının cəmi 0,15%-ini təşkil edir. Bununla belə, Azərbaycanın fiziki və coğrafi xüsusiyyətləri onu iqlim dəyişikliyinin təsirlərinə

qarşı çox həssas ölkə edir. Bu təsirlər xüsusilə quraqlıqların, termal streslərin, daşqınların və digər təhlükəli təbiət hadisələrinin sayının artması ilə müşahidə olunur.

**Cədvəl**

Davamlı İnkişafa Təsir Profili

| | | Nisbi ballar | | | | Nəticələr |
|---|---|---|---|---|---|---|
| | Meyarlar | Yekun bal | Kompo-nentlərin faizlə miqdarı | Kompo-nentlərin nisbi balı | Nisbi balların komponent-lər üzrə paylanması | Komponentlər üzrə yekun hesablanmış bal |
| 1 | Sosial təsir: | 0,15 | | | | |
| Komponentlər | Maraqlı Tərəflərin iştirakı | | 30% | 0,045 | | $X_1$ |
| | Təkmilləşdirilmiş xidmət imkanları | | 35% | 0,0525 | | $X_2$ |
| | İmkanların artırılması | | 35% | 0,0525 | | $X_3$ |
| 2 | Ətraf mühitə təsir: | 0,50 | | | | |
| Komponentlər | Təbii yanacaqdan alınan enerji resurslarının istehlakında azalmaya yardım | | 30% | 0,150 | | $X_4$ |
| | Yeraltı və içməli su keyfiyyətinə təsir | | 15% | 0,125 | | $X_5$ |
| | Su axınlarına təsir | | | 50% | 0,0625 | $X_6$ |
| | Havanın keyfiyyətinə təsir ($NO_x$, $CO_2$) | | | 25% | 0,03125 | $X_7$ |
| | Biomüxtəlifliyə təsir | | | 25% | 0,03125 | $X_8$ |
| 3 | Torpaqdan istifadəyə təsir<br>İqtisadi təsir: | 0,25 | 20% | 0,10 | | $X_9$ |
| Komponentlər | Regional iqtisadi dirçəlişin yaradılması | | 30% | 0,075 | | $X_{10}$ |
| | İş yerlərinin yaradılması | | 50% | 0,125 | | $X_{11}$ |
| | Yeni Texnologiyanın Ötürülməsi (ölkə üçün texnoloji innovasiya) | | | | | $X_{12}$ |
| | Tarazlaşdırılmış ödənilmə | | 20% | 0,05 | | $X_{13}$ |
| 4 | Uyğun sahələrdə siyasətə təsir: | 0,10 | | | | |
| Komponentlər | Milli və yaxud regional siyasətə təsir | | 50% | 0,05 | | $X_{14}$ |
| | Sahələr üzrə siyasətə təsir | | 50% | 0,05 | | $X_{15}$ |
| | | | | | | $A=\Sigma X_i=(-1)\div(+1)$ |

***Qeyd**. Cədvəldə göstərilən bal qiymətləri ixtiyari (şərti) xarakter daşıyır və hər layihə üçün uyğunlaşdırıla bilər. Hər bir baxılan layihə üçün bal qiymətləri -1 və +1 arasında dəyişməklə təsirlərin uyğun qiymətləri əsasında hesablamalar aparılmalıdır.

Azərbaycan bərpa olunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu, həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40% azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkə 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını 30%-ə çatdırmaq və yaşıl enerji sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir [2]. 11-22 noyabr 2024-cü ildə Azərbaycanda 29-cu "Tərəflər Konfransı (COP29)"nın keçirilməsi qərara alınmışdır. COP tədbirlərinin məqsədi dünyada karbon qazının ($CO_2$) miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi, 1,5$^0$C ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olunmasıdır [3]. Azərbaycanda aşağıdakı sahələr üzrə istilik effekti yaradan qazların emissiyasının azaldılması üzrə layihələrin hazırlanması zəruridir: energetika, sənaye, kənd təsərrüfatı, torpaqdan istifadə və meşə təsərrüfatı və tullantıların idarə edilməsi prioritet sektorlardır.

Layihənin Davamlı İnkişafa Təsirinin qiymətləndirilməsi aşağıdakı 4 meyar üzrə həyata keçirilir [4, 5]:
**I.** Sosial təsir (Maraqlı Tərəflərin iştirakı, təkmilləşdirilmiş xidmət imkanları, imkanların artırılması)
**II.** Ətraf mühitə təsir (təbii yanacaqdan alınan enerji resurslarının istehlakında azalmaya yardım, yeraltı və içməli su keyfiyyətinə təsir, su axınlarına təsir, hava keyfiyyətinə təsir ($NO_x$, toz, uçucu karbohidrogenlər və $CO_2$), biomüxtəlifliyə təsir, torpaqdan istifadəyə təsir)
**III.** İqtisadi təsir (regional iqtisadi dirçəlişin gücləndirilməsi, iş yerlərinin yaradılması, yeni texnologiyanın ötürülməsi (ölkə üçün texnoloji innovasiya), tarazlaşdırılmış ödənilmə)
**IV.** Uyğun sahələrdə siyasətə təsir (milli və/yaxud regional siyasətə təsir, sahələr üzrə siyasətə təsir).

Qiymətləndirilmə müsbət və mənfi təsirləri nəzərə almaqla -1 və +1 arasında yerləşən rəqəmlər vasitəsilə aparılır. Hesablamaların nəticələri Davamlı İnkişafa Təsir Profili adlanan cədvəldə yerləşdirilir.

Hesablamalar Milli Meyarlar sisteminə uyğun olaraq, davam etdirilərək baxılan Layihənin Ölkənin Davamlı İnkişafına Təsirini göstərən nəticə ilə yekunlaşmalıdır. Əgər alınan nəticə müsbətdirsə, baxılan Layihə Ölkənin Davamlı İnkişafına müsbət təsir edir və Təmiz İnkişaf Mexanizmi layihəsi kimi həyata keçirilə bilər.

**Ədəbiyyat:**


1. Fourth National Communication To The United Nations Framework Convention On Climate Change Republic Of Azerbaijan, https://unfccc.int/sites/default/files/resource/FNC%20report.pdf
2. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=20466
3. https://www.bbc.com/azeri/articles/cpr3vgv5r95o
4. How-to Guide: National Institutional Frameworks for the Kyoto Protocol Flexible Mechanisms in Eastern Europe and the Commonwealth of Independent States, UNDP, 2006
5. Albert Zweering. Proposed Method for Sustainability Assessment of CDM Projects, 2005.